# QULU ƏSGƏROVU GÖRMƏK ÜÇÜN VERİLƏN GÖZ

## VƏ YAXUD "DOLANARAM BAŞINA"NIN HEYRƏT ALƏMİ" KİTABI HAQQINDA DÜŞÜNCƏLƏR...

**Vaxtdaşları, əməldaşları, işdaşları arasında xoş təbəssümlü, mehriban gülüşlü, yüksək intellekt sahibi olan pedaqoji elmlər doktoru, professor, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, akademik, Əməkdar müəllim Vidadi Xəlilov - cingiltili, şaqraq söz-söhbətlərində qaynar cavanlıq təravəti, fikirlərində, düşüncələrində gənclik saflığı, təmizliyi, hərarətli baxışlarında nikbinlik, dağ bulaqları kimi çağlayan köksündə coşqun həyat eşqi gəzdirən alim, gərəkli, dəyərli, elmi-pedaqoji və yaradıcılıq işlərini uğurla həyata keçirən öncül ziyalılarımızdan biri.**

Ötən illər Vidadi müəllimin Beynəlxalq Muğam Mərkəzində və respublika mətbuatında bir neçə dəfə mənim haqqımda dediyi alovlu sözlər və fikirlər bu uca hörmət hisslərinin onun qəlbində necə hərarətlə döyündüyünə bariz nümunədi.

Professorun bu ilin yayında "Elm və təhsil" Nəşriyyatında yüksək poliqrafik keyfiyyətlə çapdan çıxan və milli musiqi ifaçılığı məktəbinin istedadlı nümayəndələrindən biri, xanəndə, nəğməçi, opera solisti, pedaqoq Qulu Əsgərovun həyat və yaradıcılığından bəhs edən "Dolanaram başına"nın heyrət aləmi" kitabı qarşımdadı və insan gözü kimi səbrlə, təhdidedici nəzərlərlə məni izləyir.

### *Unudulmaz sənətkarın yaradıcılıq dünyası*

***kitabda gərəyincə açılıb. Qulu Əsgərovun qabarıq, zəngin çalarlı obrazını koloritli boyalarla və detallarla aşkarlayan dolğun mənzərələr parlaq səhifələrdə göz önündədi. Yazıların dili səlis, təbii, aydın, oxunumludu. Bu duyğu və düşüncələr əsərin bu günümlüyünü, gərəkliliyini, musiqi mədəniyyətində qiymətli bir fakt olduğunu bir daha təsdiqləyir. Fürsətdən istifadə edib, mənə bəşx etdiyi estetik zövq üçün müəllifə "çox sağ olun" deyirəm.***

Oxucum, inamla bildirirəm ki, bu kitab bənzərsiz ifaçı Qulu Əsgərovu görmək üçün verilən alovlu, ehtiraslı, nüfuzedici və həmişə dupduru bulaqlarında xəfif bir təbəssüm gizlənmiş işıqlı, nurli gözdü. Sən də od, atəş, sevgi dolu nəzərlərinlə bu gözə boylan və... heyranedici, əsrarəngiz musiqili sənət dünyasının tükənməz gözəlliklərinə dastanlarımızda, nağıllarımızda söyləndiyi kimi bir könüldən min könülə vurul, məftun ol, yaşa! .

***Əsərlə səhifə-səhifə, fəsil-fəsil göz dolusu tanış olduqca hiss edəcəksən ki, müəllif onu nə qədər məsuliyyətlə, digər tərəfdən də bal kimi cana məlhəm səsi və təkrarolunmaz, bənzərsiz ifa üslubu sayəsində xalqın dərin rəğbət və hörmətini qazanmış ünlü sənətkar barədə necə vəcdlə, dadlı bir dillə, sonsuz məhəbbətlə yazıb.***

***Musiqi tədqiqatçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının redaktoru olduğu kitabın bəyənimli cəhətlərindən biri, bəlkə də görümlük dəyəri professor Vidadi Xəlilovun istedadlı xanəndənin və mahir pedaqoqun ömürlüyünə yaxından, yaxşı bələd olmasıdı.***

Bu gün aləmin qəbul etdiyi danılmaz. inkaredilməz bir həqiqət var ki, xalqımızın zəngin mədəniyyət xəzinəsi sayılan milli musiqi ifaçılığı - muğam artıq təkcə Azərbaycanın yox, bütün dünyanın sərvəti, ən dəyərli, ən üstün sənət incilərindəndi. İllərin sınağından uğurla çıxan, cilalanan, saflaşan xanəndəlik sənəti xalqımız tərəfindən həmişə sevilə-sevilə əzizlənib. Bu nəcib sənətin ana beşiyi, heç şübhəsiz ki, vətənimizin dilbər guşələrindən biri kimi dəyərləndirilən Qarabağ olub.

***Xanəndəlik sənətindən söhbət açanda ilk növbədə bu torpağın yurdımıza bəxş etdiyi və Şərqin əvəzsiz ifaçılarından Cabbar Qaryağdıoğlunu, Əbdül-Baqi Zülalovu (Bülbülcan), Keçəçi oğlu Məhəmmədi, Məşədi Məhəmməd Fərzəliyevi, Məcid Behbudovu, Seyid Şuşinskini, Xan Şuşinskini, İslam Abdullayevi, Seyid Şuşinskini, Bülbülü, Zülfü Adıgözəlovu və digər sənət korifeylərini xatırlayırıq. Ona görə də Şuşanı haqlı olaraq Şərq musiqisinin konservatoriyası adlandırıblar. Lakin bir məsələni də qeyd etmək yerinə düşər ki, əğər Şuşa musiqi mədəniyyətimizin müqəddəs beşiyi, konservatoriyasıdırsa, Bakı onun akademiyasıdı. Çünki yuxarıda adlarını sıraladığımız sənətkarların hamısı, məhz, Bakıya gələndən sonra muğam ifaçısı kimi tam təkmilləşiblər və musiqi aləminin ən yüksək zirvəsinə qalxıblar. Bu sözün böyük gerçəyini adlarını indi xatırlatdığım xanəndələrin əsiredici oxumasını dinləyən hər bir insan o saat duyar, təsdiqləyər.***

Məhz Bakı musiqi akademiyasında bu səslərin içində yetişən, formalaşan, inkişaf edən xə xalqın sevimlisinə çevrilən, ölərilikdən uzaq bir sənətkarın - Qulu Əsgərovun da səsi var. Bu dəm bu düşüncələri qələmə aldıqca xəyalımın aynasında Qulu müəllimin oxuyarkən vəcdə gələn nurlu simasını, gülər gözlərini görür, onun yanıqlı ləhninin adamı valeh edən yapışığını duyuram.

### *Kitabı səhifələdikcə,*

ömür deyilən müqəddaratın varaqlarını bir-bir çevirdikcə, geniş bir qəlbin musiqi aləminə vaqif olduqca gənclik çağlarımdan tanıdığım, təsirli, adamın canına hopan, sümüyünü sızıldadan, könlünü riqqətə gətirən, ürəyinə həzinli-hüznlü qubar dolduran füsunkar səsini canlı eşitdiyim sənətkarın şərəfli varlığının tutumlu, dolumlu, unudulmaz yaşantıları, zəngin dəlillər, faktlar düzümü illərin uzaq, qərib sahillərindən, yaddaşın alatoranından aşkarlanıb gerçəkləşən foto şəkillər kimi yavaş-yavaş gözlərimdə görümlənir, ürəyimdə xaturə damcıları göllənir.

Və bu yazı qəzet materialı kimi nəzərdə tutulduğuna və bu baxımdan da yığcam qələmə alınmalı olduğuna görə zamanın qarmon köynəyi kimi açılmış müxtəlif illərində qazanılan sənət uğurlarını tez olsun deyə üst-üstə yığıb dəstələyirəm.

İfaçılıqda yeni-yeni dar-dar elədiyi, kövrək addımlar atdığı gənc çağlarından muğam oxumağa və tar çalmağa hədsiz sevgi və güclü həvəs öncə onu Salyan Rayon Mədəniyyət Evinin bədii özfəaliyyət kollektivinə gətirib, gənc musiqiçilərin respublika olimpiadasının qalibi olub, birinci dərəcəli diploma layiq görülüb.

### *Peşəkar musiqi təhsili almaq eşqi ilə*

qanadlanan muğam aşiqi, Bakı Orta İxtisas Musiqi Məktəbini (indiki Azərbaycan Milli Konservatoriyasının nəzdində Musiqi Kolleci) bitirib. Burada muğam sənətindən müəllimi sözün əsl mənasında pedaqoq- xanəndə Seyid Şuşinski, tarda not müəllimi Əməkdar artist, bəstəkar Adil Gəray, tar-muğam müəllimi isə Xalq artisti Əhməd Bakıxanov olub. Musiqi məktəbini bitirdidən sonra solist kimi Azərbaycan Dövlər Akademik Opera və Balet Teatrına dəvət alıb.




***Ali sənət ocağında xalq artistləri Sultan Dadaşovun və Şəmsi Bədəlbəylinin köməyi ilə "Leyli və Məcnun" operasında Zeyd rolunda ilk dəfə böyük səhnəyə qədəm qoyub. Görkəmli opera artistlərinin səhnə təcrübəsindən öyrənməsi gənc xanəndə-aktyoru yeni-yeni rollar üzərində işləməyə ruhlandırıb. Fitri istedadı və zəhmətsevərliyi sayəsində ən mürəkkəb muğamların texnikasını dərindən mənimsəyə bilməsi ona operada uğurla çıxış etməyə və parlaq, yaddaqalan obrazlar qalareyası yaratmağa imkan verib.***

Opera səhnəsində hazırladığı növbəti rolu "Əsli və Kərəm" əsərində Kərəm obrazı olub. Səsində, xırdalıqlarında, zəngulələrində, nəfəsində aşıq ifaçılıq üslubu üstünlük təşkil etdiyi üçün o, bu obrazı yüksək səviyyədə yaradıb, tamaşaçılara Kərəmin nakam məhəbbətini şirin hisslərlə dolu məlahətli, coşqun səslə, məharətli səhnə oyunu ilə çatdırıb.

Uzun illər teatrın aparıcı solistlərindən biri kimi Qulu Əsgərovun milli operamızın inkişafında xidmətləri danılmazdı. Səhnəmizdə oynadığı məftunedici rollar heç zaman sənətsevərlərin xatirindən silinməyib. Onun ürəyinin yağını damızdırıb yaratdığı və öz eşqinin yolunda möhnət səhralarını addımlayan, iztirab qamçılarına sinə gərən Kərəm ("Əsli və Kərəm"), Məcnun ("Leyli və Məcnun"), Qərib ("Aşıq Qərib") obrazları dramatik ifaçılıq və musiqi səciyyəsi baxımından son dərəcə dolğun və təsirli olub. Bu səsi hər dəfə səhnədə dinləyən, oduna düşüb hissləri qovrulan hər bir tamaşaçı öz könlünə əvvəl-əvvəl közərib, sonra da yanğı salan ilk eşq və ələm ensiklopediyasını - məhəbbət ensiklopediyasını vərəqlədiyini yəqin ki bu gün də xoş duyğularla xatırlayır.

### *Yüksək diapazonlu ecazkar səsi,*

***mətn ilə musiqinin sıx əlaqəsi zəminində dinləyicinin daxili aləminə nüfuz etmək, onda güclü emosional təsir çalarları yaratmaq bacarığı, ifa tərzinə xas olan məziyyətlər muğam və xalq mahnılarının bənzərsiz ifaçısı kimi də Qulu Əsgərova şöhrət gətirib, onu xalq musiqi nümunələrinin sayılıb-seçilən ifaçıları, öyüncülləri sırasına çıxardıb. O, muğamların daima saflığını qoruyub, ifasında heç bir bayağı melodiyaya, artıq səslərə, mənasız sözlərə yol verməyib, xanəndə, nəğməçi kimi heç kəsi təqlid etməyib, oxşamaz, özümlü, təkraredilməz ifa tərzi, təravəti olub.***

Və bu ufaçılıq təravəti onun oxuduğu muğam və mahnılardakı çiçəklərdən - xırdalıqlardan, gəzimələrdən, zəngulələrdən, şirin, dadlı boğaz qaynatmalarından, heyranedici lirikadan gələn rayihələrdən yaranıb. Bu rayihələr isə Qulu müəllimin yanıqlı səsinin füsunkar çeşməsindən su içib.

Qulu Əsgərov ifaçılıq sənətində qazandığı uğurlarla kifayətlənməyib, Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) təhsil alıb. Ali təhsilini başa vurduqdan sonra o, axtarışlarla dolu qaynar yaradıcılıq fəaliyyətində milli musiqimizin ənənələrini davam etirməklə bərabər, xatirəsini həmişə əziz tutduğu ustadı, müəllimi Seyid Şuşinskidən öyrəndiklərini əyani tədris etmək üçün özünü bütövlükdə pedaqoji fəaliyyətə bağlayıb, həyatının sonuna kimi İncəsənət İnstitutunun musiqi kafedrasında fasiləsiz 21 il baş müəllim vəzifəsində çalışıb, sənət yollarında qazandığı təcrübə və biliyini, muğam ifaçılığının sirrlərini və incəliklərini həvəslə istedadlı gənclərə öyrədib. Bir çox gənc ifaçılar məhz Qulu müəllimin yaxından köməyi ilə ilk yaradıcılıq addımlarını atıb, böyük səhnədə öz istedadlarını nümayiş etdiriblər. Onların bir çoxu artıq öz yaradıcılığı ilə xalq arasında geniş hörmət qazanan adlı-sanlı sənətkar hesab olunurlar.

Onun özəl ömürlük aləmi də hamıya bəyənimli olub, məhəbbət oyadıb. Qulu Əsgərov insanlar arasında şux, nikbin, həmişə sevinc axtaran, şadlıq sevən nəcib, xeyirxah, gözəl xasiyyətli bir adam kimi daima diqqət çəkib. Ömürlüyündəki bu şuxluq, nikbinlik oxumalarına da köçüb.

### *Saysız-hesabsız konsert çıxışlarında*

***zövqlə, həssaslıqla, çox maraqlı, çox rəngarəng, çox ifadəli və cəzbedici tar çalması ilə öz oxumalarını məharətlə müşayiət edən Qulu müəllimin ürəkləri riqqətə, könülləri ehtizaza gətirən, qəlbləri duyğulandıran muğam sənəti nümunələri, mahnı və təsnifləri, opera obrazları millətindən, dinindən asılı olmayaraq, bütün insanları birləşdirib və bu gün də onun əsl ziyalı, böyük humanist olduğunu sübut edir.***

Hər bir istedadlı, yaradıcı sənətkarın həyatı adi insan ömründən çox uzundu desəm yəqin ki Amerika kəşf etmiş olmaram. Qulu Əsgərovun yaradıcılığı həmişə - dünən də, bu gün də bizimlə olub və sabah da bizimlədi, onun ifasında lentə alınan və Azərbaycan radiosunun "Qızıl fondu"nda həmişəlik daimi qeydiyyatda olan "Mirzə Hüseyn segahı", "Bayatı-Qacar", "Bayatı-kürd" və digər muğamlar, bir sıra təsnif və xalq mahnıları onu mahir muğam ifaçısı və xanəndə kimi tanıdıb, sənətəmail dinləyicilər, onunla həmvaxt olan adamlar arasında xanəndəyə güclü nüfuz qazandırıb.

El musiqisi əsasında bəstələdiyi mahnı və təsniflər çoxşaxəli yaradıcılığının yeni çalarlarını aşkar edib. Onun Vətən, xalq sevgisi, yüksək mənəvi dəyərləri tərənnüm edən, bizi insan ülfətinə, insan səadətinə, insan ləyaqəti ilə zəngin olan ağ günlərə çağıran "Dolanaram başına", "Bəyənmir məni" "Ahu kimi", "Könül bağladım", "Muğana ceyran", "Yada sal məni", "Bulaq üstə gedən gözəl", "Sevmişəm", "Ürək", "Ayrılıq", "Əziz dostum", "Nə hə deyir, nə yox deyir", "Heydər babaya salam" kimi axıcı melodiyaya malik eşidimli mahnıları hər birimizin qəlbinə hakim kəsilib və bu əsərlər respublikamızın musiqi həyatında öz layiqli yerini tutub.

***Onun el havalarını, muğam və bəstəkar mahnılarını özündə birləşdirən tükənməz sənətini xalqımız yüksək qiymətləndirib. Qulu Əsgərovun bənzəri olmayan ifaçılıq ustalığı, bəstəçisi olduğu zərif, yumşaq, təravətli və gözəl mahnılar dinləyicilərin qəlbində unudulmaz izlər qoyub.***

Aqillərimiz deyib ki, bu dünyanın iki qapısı var, birindən girir, digərindən çıxırlar. Bu iki qapının arası ömür yolu, həyatdı. 1928-ci il dekabrın 12-də bu dünyanın bir qapısından həyat yoluna qədəm qoyan Qulu müəllimin 1987-ci il iyunun on birində 58 illik ömrü sədəfli tarının şah simi kimi qəfildən qırıldı və o, dünyanın digər qapısından gedər-gəlməzin əbədi ayrılıq yoluna çıxdı. Daha doğrusu Qulu Əsgərovun yerində bir boşluq qaldı. Xalq şair Rəsul Rza demişkən:

***Elə çalış, elə yaşa,***
***Bir gün sən olmayanda,***
***Aydın görünsün***
***Yerində qalan boşluq!***

Bu gün Qulu Əsgərovu əvəz edən, milli musiqi ifaçılığı sənətində qalan kədərli, göynərtili boşluq hər an bizimlə yaşayır, nəfəs alır. Bu boşluq Rəsul Rzanın sözünə qüvvət: "əvəzçilik deyil -özünəməxsusluq, təkrarsızlıq boşluğudu. Bu boşluq hər gün duyduğumuz və illər keçdikcə duyacağımız onsuzlu boşluqdu".

Bu "onsuzlu boşluqda", aramıza düşən 33 illik əbədi ayrlıqda Qulu Əsgərov cismən bizdən uzaqlaşsa da mənən cərgəmizdə durub. Əgər istedadlı bir musiqi ifaçısının yaşamağı, varlığı onun sənəti, füsunkar oxumaları ilə ölçülürsə, onunla dəyərləndirilirsə, deməli Qulu Əsgərov dünyasını əbədi dəyişməyib, Qulu müəllim sağdı.

Bir də axı bu necə əbədi ayrılıq sayıla bilər ki, biz indinin indisində də onun sevgi dolu ürək çırpıntılarını, hərarətini, sevinc və kədərini, məhəbbətinin gücünü lent yazılarında oxuduğu muğamlardan, el havalarından, bir birindən gözəl təsnif və mahnılarından eşidib görürük? Yaxşı onda bəs bu necə əbədi ayrılıqdı ki Qulu Əsgərov bu saat da, bu dəqiqə də öz yaxınlarının, əzizlərinin, dostlarının və şəxsən onu tanıyanların yanındadı? Və onun ecazkar səsinin nəğməli qəlb yaşantılarını bu gün də insanların sevgi, dilək dolu könül döyüntülərində duyuruq, hiss edirik. Bu ürəklər isə nəsil-nəsil döyündükcə Qulu Əsgərov da yaşayacaq, işıqlı sabahlara, nurlu gündüzlərə, gözəl gələcəyə doğru irəliləyəcək.

***Söz sözü çəkər deyiblər. Bir budaq silkələnəndə o biri budaq da titrəyər. Sonda oxucum, mən elə bu yerdəcə söbətin dalğasını dəyişib səni professor Vidadi Xəlilovun Qulu Əsgərovu görmək üçün bizə verdiyi gözə - kitaba baxmağa və xoş duyğular, möcüzə dolu xəyyallar dünyasına maraqlı bir səyahətə dəvət edirəm. Çünki indiyə qədər səsləndirdiyim, qaynar bulaq kimi söz olub axan fikirlərimin bir çoxuna müəllifin yazı üslubunda, əsərdəki köklü-köməcli ifadələrin, səlis, rəvan, dolğun cümlələrin mehriban baxışında, gülümsər simasında rast gəlmişəm. Şübhə etmirəm ki, sənin duyğuların, hisslərin, düşüncələrin mənim yaşantılarımdan daha zəngin, daha əhatəli, daha rəngarəng olacaq.***

Milli musiqi ifaçılığı arsenalına gözəl bir hədiyyə olan bu kitabı (təbii ki, bu mənim şəxsi qənaətimdir) bəyənəcəksənmi? Amma və lakin mən cəsarətlə bu cümlənin asayişində beli donqar qoca qarovulçu təki keşikdə dayanan SUAL işarəsini inamla götürüb onu qətiyyətli fikirlərimizin, inamlı düşüncələrimizin təsdiqi olaraq daima ayıq-sayıq, həmişə qorxmaz, igid bir döyüşçü əsgər kimi farağat vəziyyətdə duran NİDA işarəsiylə əvəzləyib isti bir arxayınlıqla səslənirəm:

**- Əlbəttə, oxucum, ümidvaram ki gərgin və ilhamlı əməyin bəhrəsi olan bu kitabı sözsüz bəyənəcəksən!**

**Rafiq QƏNBƏRZADƏ**